Səfərim zamanı mən, həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Birləşmiş Millətlər Təşkilatının Sizə və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupuna ən yaxşı dəstək verə biləcəyini Sizinlə və regiondakı digər tərəflərlə müzakirə etməyi planlaşdırırdım.

Ümidvaram ki, Siz indiki xüsusi dövrdə qlobal böhranlar səbəbindən mənim Nyu-Yorkda olmağıma anlaşma ilə yanaşacaqsınız. Əfsuslar olsun ki, bəzən baş verən fövqəladə hallar siyasi lider kimi ən böyük arzularımıza və əvvəlki öhdəliklərimizə müdaxilə edir.

Ümid edirəm ki, səlahiyyətlərim başa çatmazdan əvvəl Azərbaycan Respublikasına səfərimin reallaşması üçün qarşılıqlı surətdə digər münasib vaxtı müəyyən edəcəyik.

Zati-aliləri, mənim üzrxahlığımı, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Pan Gi Mun***
***BMT-nin baş katibi***

**22 aprel 2016-cı il**

# Azərbaycanın yüksək, dinamik inkişafı, dini və milli tolerantlıq məkanı olması ölkəmizdə nüfuzlu beynəlxalq forumların keçirilməsinə böyük zəmin yaradıb



***Biz istəyirik ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, bütün problemləri açıq şəkildə müzakirə etsinlər, öz fikirlərini bildirsinlər. Bakı, Azərbaycan belə mötəbər tədbirlərin keçirilməsi üçün artıq ənənəvi bir məkana çevrilmişdir. Əlbəttə, bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları vardır. Çünki əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar. İctimai-siyasi quruluşdan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır. Bütün dövrlərdə Azərbaycanda xalqlar bir ailə kimi yaşamışlar, onları həmişə dostluq münasibətləri bağlamışdır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**İyirmi beş il əvvəl dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan bu gün sürətlə inkişaf edən müstəqil dövlətə çevrilib. Qədim dövlətçilik ənənələrinə baxmayaraq, Azərbaycan gənc bir ölkədir və son iki onillikdə həyata keçirilən tədbirlər və demokratik proseslərə xüsusi önəm verilməsi respublikamızı dünyanın inkişaf edən ölkələri sırasına qoşub. Azərbaycanın regionda və dünyada artan əhəmiyyəti ölkəmizi beynəlxalq məsələlərin müzakirə olunduğu qlobal forumların məkanına çevirib. Həm İslam, həm də Avropa təşkilatlarının üzvü kimi, Azərbaycan hər iki sivilizasiyanın dəyərlərini özündə birləşdirir və bu da respublikamızın Avrasiyada geosiyasi, geostrateji və geoiqtisadi əhəmiyyətli bir mərkəz rolunu oynamasına imkan yaradır.**

Avropa məkanına inteqrasiya, demokratik dəyərlərin inkişafı, tolerantlıq müstəqil Azərbaycan Respublikasının həyata keçirdiyi siyasətin əsasını təşkil edir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarci siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi strategiya nəticəsində ölkəmizin beynəlxalq aləmdəki nüfuzu getdikcə artır. Dünyanın bir sıra nüfuzlu təşkilatlarının bərabərhüquqlu üzvü olan Azərbaycanın dinamik inkişafı, demokratik dəyərləri, insan hüquq və azadlıqlarının müdafiəsini prioritet vəzifəyə çevirməsi dünya ölkələri tərəfindən müstəqil dövlətimizə olan marağı gündən-günə artırır, əməkdaşlığı daha da genişləndirir. Artıq Azərbaycan qlobal layihələrdə iştirakına və siyasi gedişlərinə görə çağdaş dünyanın önəmli üzvünə çevrilib. Təsadüfi deyildir ki, bu gün Azərbaycan və onun paytaxtı Bakı dünyada humanitar mərkəz, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınır, Ümumdünya Mədəniyyətlərarası Dialoq, Beynəlxalq Humanitar, Dünya İqtisadi forumlarına və digər mötəbər tədbirlərə ev sahibliyi edir. Bakıda keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər müstəqil Azərbaycan dövlətinin dünyada yüksələn reytinqini təsdiq edən mühüm amillərdəndir. Azərbaycan artıq müxtəlif xarakterli—siyasi, idman, səhiyyə, iqtisadi və digər tədbirlərin keçirildiyi məkana çevrilib.

Dünyanın tanınmış ictimai-siyasi xadimləri də bu gün Azərbaycanın regionda sülh, əmin-amanlıq, əməkdaşlıq məkanına çevrildiyini və bu məkanda getdikcə daha geniş spektrli, rəngarəng mövzuları əhatə edən beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirildiyini etiraf edirlər. Son illər rəsmi Bakının ev sahibliyi etdiyi tədbirlərə nəzər yetirdikdə bir daha aydın olur ki, bunlar ən müxtəlif mövzuları əhatə edir. Buraya idman, siyasət, regional əhəmiyyət kəsb edən məsələlər, o cümlədən dünyanın siyasi gündəmini zəbt edən mövzular daxildir.

Hazırkı real coğrafi və geomədəni imkanlara malik olan Azərbaycan, həm Avropa Şurasına, həm də ISESCO-ya üzv olan yeganə dövlətdir. Respublikamız həm islam dövlətləri, həm də Qərb ölkələri ilə möhkəm dostluq və əməkdaşlıq münasibətləri yaratması ilə yanaşı, müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən mehriban dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant bir ölkədir.

Bu gün Azərbaycan müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair sanballı tədbirlər keçirilməsi üçün ənənəvi məkana çevrilib. Artıq daha bir mötəbər tədbirə ev sahibliyi etmək ərəfəsindəyik. Təbii ki, söhbət "İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" şüarı altında BMT Sivilizasiyalar Alyansının Vll Qlobal Forumundan gedir. Bu tədbirin Azərbaycanda keçirilməsi çox mühüm və əhəmiyyətli hadisədir.

Bakı şəhərində keçirilən bu forum Azərbaycanın bir daha dünyada sürətli inkişafının, bütün sahələr üzrə əldə etdiyi böyük uğurların nümayişi, tanıtımı deməkdir. Bu forumun keçirilməsi ilə əlaqədar hələ bir il öncə, 2015-ci il iyul ayının 24-də ölkə Prezidenti İlham Əliyev tərəfindən müvafiq sərəncam imzalanmış və həmin sərəncamla forumun Təşkilat Komitəsi yaradılmışdır.

Qürurverici haldır ki, Azərbaycan bu günə kimi BMT Sivilizasiyalar Alyansının Vll Qlobal Forumu da daxil olmaqla, dünya əhəmiyyətli bir sıra forumlara, mədəniyyətlərarası dialoqa, dünya dini liderlərinin sammitinə və digər tədbirlərə uğurla ev sahibliyi edib. Bu, hər birimizin sevincidir, qürur və fəxr mənbəyidir. Təbii ki, bütün bunlar ölkəmizin özünün yüksək inkişaf səviyyəsinə nail olması, tolerantlığın modelinə çevrilməsi ilə əldə olunub. Məhz Azərbaycanın yüksək, dinamik inkişafı, dini və milli tolerantlıq məkanı olması sayəsində ölkəmizdə hər il nüfuzlu beynəlxalq forumlar, tədbirlər keçirilir və bu da dünyada yaxşı mənada böyük əks-səda doğurur, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayını getdikcə artırır. Yaxın keçmişdə ölkəmizin mötəbər qurumlara ev sahibliyi etməsinə nəzər yetirməklə, deyilənlərin həqiqət olduğu özünü açıq şəkildə büruzə verər.

Mədəniyyətlərarası dialoq yaşadığımız dünyada qlobal səviyyədə özünü daha qabarıq şəkildə büruzə verən ən təxirəsalınmaz vəzifələrdən biridir. Bunu son illərdə rəsmi Bakıda keçirilmiş rəngarəng tədbirlər və müvafiq təşkilatların müəyyən etdiyi iş həcmi də təsdiqləyir. Hələ 2008-ci il dekabrın əvvəllərində Bakıda keçirilmiş Avropa və qonşu regionların mədəniyyət nazirlərinin konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqində irəli sürülən və müxtəlif mədəniyyətlər, sivilizasiyalar arasında mədəniyyətlərarası dialoqun inkişafını nəzərdə tutan "Bakı Prosesi" təşəbbüsünün məntiqi davamı kimi 2011-ci ilin aprelində paytaxtımızda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirlimişdir. Bu möhtəşəm tədbirin keçirilməsinə qədər isə qlobal dünyanın problemlərinin həllinə siyasi uzaqgörənliklə qatılan dövlətimizin başçısının məntiqi mülahizələri beynəlxalq birlik tərəfindən lazımınca dəstəklənmişdir. Təsadüfi deyildir ki, 2009-cu il oktyabrın 13-dən 15-dək Azərbaycanın uğurla ev sahibliyi etdiyi İslam ölkələri mədəniyyət nazirlərinin konfransı çərçivəsində "Mədəniyyətlərarası dialoq" mövzusunda keçirilmiş "dəyirmi masa"da "Bakı Prosesi—sivilizasiyalar arasında dialoqa yeni çağırış" adlı rəsmi sənəd qəbul edilmişdir. Həmçinin TÜRKSOY-un Daimi Şurasının 2009-cu il oktyabrın 16-17-də Bakıda keçirilmiş 26-cı toplantısında qəbul olunmuş sənədlərdə də Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü "Bakı Prosesi"nin davam etdirilməsinin vacibliyi xüsusi vurğulanmışdır.

2010-cu ilin aprelində dünyanın dini liderlərinin Bakıya toplaşması tolerantlığa verilən yüksək dəyərin göstəricisidir. Dünya Dini Liderlərinin Bakı Sammitində Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etmişlər. Tədbirdə dünyanın 33 ölkəsindən ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox yüksək səviyyəli nümayəndə iştirak etmiş, həmçinin bu mötəbər tədbirə 14 nüfuzlu beynəlxalq təşkilatın, eləcə də Rusiya Federasiyasının 11 subyektinin dini rəhbərləri və nümayəndələri də qatılmışlar. Nəhayət, 2010-cu il mayın 20-də Bakıda UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair iştirak etməsi xüsusilə yaddaqalan olmuşdur. Forumda 64 ölkədən 540-dan çox nümayəndə, o cümlədən 14 Nobel mükafatı laureatının iştirak etdiyini qeyd etsək, tədbirin pozitiv beynəlxalq səylərə böyük bir töhfə olduğu, dünyada tolerantlıq, dialoq, insanlar və xalqlararası qarşılıqlı yanaşma kimi dəyərlərə və beynəlxalq hüquqa əsaslanan yeni və güclü quruluşun yaradılmasına yönəldiyini açıq şəkildə görmək olar. Forum çərçivəsində keçirilən görüşlər, aparılan diskussiyalar humanitar sahədə əməkdaşlıq üçün ortaya yeni imkanlar qoymuşdur. Məhz bunun nəticəsidir ki, hazırda dünya miqyasında humanitar məsələlərlə bağlı yeni bir format yaranmaqdadır. Bütün bunların formalaşmasında Bakıda keçirilmiş forumların yekunları, qəbul edilmiş qərarlar, bəyannamələr böyük rol oynamışdır. Bu tədbirlərin əsas məqsədlərindən biri bütün dünya xalqlarını bir yerə cəmləmək olmuşdur. Çünki dünya sürətlə dəyişir, texnoloji inkişaf bu dəyişikliyi daha da gücləndirir, bu gün əsas məsələ bu dəyişikliyə uyğunlaşmaqdır.

Azərbaycanın əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən yararlanaraq, beynəlxalq aləmdə öz yerini tutmuş Bakı Beynəlxalq Humanitar Forumu artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilmişdir. Xarici tərəfdaşların və tədbir iştirakçılarının müraciətləri, ölkəmizin bu sahədə davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə forumun iki ildən bir dəfə keçirilməsi ilə bağlı Prezidenti İlham Əliyev 2011-ci il mayın 27-də fərman imzalamış, ölkə başçısının himayəsi və iştirakı ilə "Çoxmədəniyyətli sahəsində dövlət və özəl idarəetmə məsələlərinə həsr olunmuş tədbirdə iştirakçılar yoxsulluğa qarşı mübarizə və dövlət məsələlərində menecmentin səviyyəsinin yüksəldilməsi, Şərqi Avropanın enerji təhlükəsizliyi, nəqliyyat əlaqəsi regional strategiyasının həyata keçirilməsi, regional münaqişələrin enerji siyasətinə təsiri, enerji təhlükəsizliyi və Azərbaycana sərmayə qoyuluşu, kiber təhlükəsizlik və qloballaşma, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin problem və perspektivləri, turizm və bu sahədə əməkdaşlıq məsələlərini müzakirə etmişlər.

2013-cü il aprelin 7-8-də Azərbaycan daha bir beynəlxalq tədbirə ev sahibliyi etdi – Davos İqtisadi Forumu Bakıda keçirildi. Bu mötəbər tədbirin paytaxtımızda keçirilməsi Azərbaycanın regionda aparıcı ölkə olduğunu bir daha təsdiqlədi. Davos Forumu ilk dəfə olaraq Xəzər sahillərinə gətirildi. Bu forumu təşkil etməklə ölkəmiz sadəcə regionun iqtisadi cəhətdən aparıcı ölkə olduğunu beynəlxalq arenada təsdiq etdirmədi, eyni zamanda, Azərbaycanın Cənubi Qafqaz ilə Orta Asiya inteqrasiyasında həlledici ölkə olduğunu göstərdi.

Məhz bu inteqrasiyanın əhəmiyyətini yüksək qiymətləndirən ölkə Prezidenti İlham Əliyev Forumun açılış mərasimində çıxışı zamanı bildirmişdir: "Mərkəzi Asiya, Xəzər dənizi və Qara dəniz regionlarının, Cənubi Qafqazın böyük potensialı vardır. Ola bilsin, bu gün həmin potensialın yalnız bir hissəsini təqdim edə bildik. Lakin əminəm ki, gələn illər ərzində biz bu müzakirələrə daha çox diqqət ayıracağıq və onlar, eyni zamanda, ideyaları formalaşdırır, rəyləri və gözləntiləri, o cümlədən narahatlıq doğuran, bəzən məyus edən məsələləri söyləmək üçün mühit yaradır. Lakin regionda müşahidə olunan əsas meyil inteqrasiya və əməkdaşlıqdır".

2015-ci il mayın 18-19-da "Bakı tual körpü rolunun önə çıxmasına yönəlik fəaliyyətdir. Yəni, "Bakı prosesi" həm multikultural, həm də interkultural beynəlxalq və yerli fəaliyyətlərin davamlı məcmusudur. Bu fakt ölkəmizin beynəlxalq arenada mövqeyini möhkəmlədir və müxtəlif mədəniyyətlər arasında körpü rolu oynamasını təmin edir, həmçinin Azərbaycan dövlətinin təşəbbüsü beynəlmiləl status qazanır.

Buna qədər isə dövlətimizin başçısı daha bir qətiyyətli addım ataraq, 2014-cü il fevralın 28-də Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyi, bir az sonra isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ilə əlaqədar sərəncam imzalamışdır. Beynəlxalq ekspertlər bunu dinlərarası, millətlərarası, mədəniyyətlərarası dialoqun gücləndirilməsinə yönəlmiş tədbirlərin davamı kimi qiymətləndirmişlər.

Azərbaycan Prezidentinin sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan olunmuşdur. Bu vaxta qədər keçirilən humanitar forumlar və sivilizasiyalararası dilaoqlar da təsdiqləyir ki, dövlət başçısının imzaladığı sərəncam heç də təsadüfi deyil. Dövlətimizin başçısı bu qərarı verərkən Azərbaycan xalqının minilliklər boyu mövcud olan ənənələrinə söykənmiş, Azərbaycanda tolerant cəmiyyət formalaşdığını bir daha təsdiqləmişdir. Bütün bunlar BMT Sivilizasiyalar Alyansının Vll Qlobal Forumunun Bakıda keçirilməsinə böyük zəmin yaratmışdır.

Qəti əminliklə demək olar ki, Azərbaycan bütün zamanlara örnək ola biləcək əsl tolerantlıq nümunəsidir. Bu, təkcə, ölkədə yaşayan milli və etnik azlıq nümayəndələrinin deyil, həm də beynəlxalq aləmin səmimi etiraflarıdır.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***